# Nizami rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər



**Böyük inkişaf dövrünü yaşayan bu rayonda ölkənin sosial-iqtisadi tərəqqisinə töhfələr verən yüzlərlə müəssisə, idarə və təşkilat fəaliyyət göstərir**

Azərbaycanın hərtərəfli inkişafında görülən işlərin sistemliliyini təmin edən Dövlət Proqramlarının, xüsusilə Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının əhəmiyyətli rolu danılmazdır. Son illər ölkəmizdə müşahidə olunan sosial-iqtisadi inkişaf sürətlə böyüyən Bakının simasını da dəyişməkdədir. Təsadüfi deyil ki, bir müddət əvvəl Bakıya yolu düşmüş xarici vətəndaşlar təkrar ölkəmizə gəldikdə heyrətlərini gizlətmir, Bakının gündən-günə gözəlləşdiyindən ağızdolusu danışırlar. Təbii ki, bu inkişaf dalğası təkcə paytaxt Bakı ilə məhdudlaşmır, şəhərin hüdudlarını aşaraq onun rayonlarını da ağuşuna alır. Bu uğurlara yol açan verilən qərar və sərəncamlar, onların uğurlu icrasıdır. Bu gün Bakı şəhərinin 12 rayonunun infrastrukturunun yenilənməsi, yeni yaşayış massivlərinin, yaşıllıqların, bağ və parkların salınması, təhsil və səhiyyə ocaqlarının tikilməsi, köhnələrinin təmir və bərpa olunması, yol ötürücüləri və körpülərin inşa olunması çox tezliklə paytaxtımızın, həm də sənaye şəhəri olaraq, dünyanın ən qabaqcıl şəhərləri ilə rəqabət apara biləcəyi gerçəkliyini ortaya qoyur. Paytaxtın ayrı-ayrı rayonlarında həyata keçirilən abadlıq-quruculuq işləri Bakımızın ən gənc rayonunda da geniş vüsət alıb. Nizami rayonunun ərazisində təkcə bu rayonun deyil, bütövlükdə ölkənin sosial-iqtisadi inkişafına töhfə verən yüzlərlə müəssisə, idarə və təşkilat fəaliyyət göstərir. Eyni zamanda rayon ərazisində yüzlərlə yeni layihələr həyata keçirilir.

**Nizami rayonu barədə nə bilirik?**

Rayon dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyır. Bu il yaranmasının 35 illiyini qeyd edən rayonun əsası 1980-ci ilin noyabr ayında qoyulub. Ərazi cəhətdən də ən kiçik olan - 19,6 kvadrat kilometrə malik rayonun əhalisi 193449 nəfərdir. Rayon Bakının qədim yaşayış məntəqələrindən olan Keşlə qəsəbəsini və ötən əsrin 70-ci illərində sənaye obyektlərinin inşası ilə tikintisinə start verilmiş 8-ci kilometr qəsəbəsini özündə birləşdirir. İri sənaye müəssisələrinin tikintisi ilə əlaqədar burada işləyənlərin yaşaması üçün binaların inşası ilə əsası qoyulan 8-ci kilometr qəsəbəsi məhz şəhərin mərkəzindən eyni kilometr olan məsafə ilə bağlı olaraq "vosmoy" kilometr adlanır. İnşası dönəmində şərti olaraq məsafə ilə adlandırılan ərazi sonradan elə bu adla da rəsmiləşdirilib.

**Nizami rayonu paytaxtın ən böyük sənaye rayonudur**

Sənaye rayonu kimi əsası qoyulandan bəri Nizami rayonu bu gün də eyni statusa sadiq qalmaqdadır. Belə ki, rayonun ərazisində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu, Elektron Hesablama Maşınları Zavodu, Peyk Zavodu, "Bakı Şərab-1" ASC, "Azərtunelmetrotikinti" SM-in Dəmir-Beton Konstruksiyaları Zavodu, "Körpü Tunel" ASC, "Bakı Diyircəkli Yastıq" ASC, "European Tobakko Baku" ASC, "Bakı Yağ-Qida Sənaye" ASC, "Veysəloğlu" MMC, "Kaspi-Yıldız" MMC və digər bu kimi iri müəssisələr yerləşir ki, bu da ölkə iqtisadiyyatına verdiyi töhfələr baxımından rayonun əhəmiyyətini xeyli artırır.

**Bu günün sosial-iqtisadi göstəriciləri rayonun inkişafı barədə hansı təəssüratı yaradır?**

Paytaxtın sosial-iqtisadi inkişafı ilə bağlı hazırlanan Dövlət Proqramları ilə əlaqədar olaraq Nizami rayonunda tikinti-quruculuq və abadlıq işləri geniş vüsət alıb. Rayon ərazisində yeni yaşayış massivləri, mərkəzi icra hakimiyyəti orqanlarının müasir inzibati binaları, Olimpiya İdman kompleksləri və digər sosial obyektlər inşa olunub və hazırda da analoji proseslər davam etdirilir. Məlumat üçün bildirək ki, 2015-ci ilin 9 ayı ərzində rayonda fəaliyyət göstərən müəssisələr tərəfindən 346,9 milyon manat dəyərində məhsul istehsal edilib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 5,1 faiz çoxdur. İstehsal olunmuş məhsulun 24,8 faizi qeyri-dövlət sektoruna aiddir. Sənayenin dövlət sektorunda 260,9 milyon manatlıq və ya ümumi istehsalın 75,2 faizi qədər məhsul istehsal edilmiş və xidmətlər göstərilib. Müəssisələr tərəfindən bazar münasibətlərinin düzgün qurulması nəticəsində 2015-ci ilin 9 ayında istehlakçılara 364,4 milyon manat dəyərində məhsul göndərilib.

Cari ilin 3-cü rübündə rayonda əhalinin kommunal problemlərinin həlli istiqamətində də xeyli iş görülüb. Nəticədə Nizami rayonunun sosial-iqtisadi və mədəni siması xeyli dəyişib. Su və kanalizasiya sistemlərinin yeniləşdirilməsi, poçt və rabitə xidməti sahəsindəki problemlərin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər də təqdirəlayiqdir. Rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin təmiri, yenidən qurulması və onların maddi texniki bazasının möhkəmləndirilməsi yönümündə də müvafiq işlər görülüb.

**Rəqəmlər nə deyir?**

Bu gün Bakının sənaye mərkəzi olan Nizami rayonunda yeni istehsal, sənaye və sosial obyektlərin istifadəyə verilməsi nəticəsində yeni iş yerləri açılır. Ümumilikdə 2003-cü ildən bu günə kimi rayonda 28109 yeni iş yerləri yaradılıb. Qeyd edək ki, rayon üzrə ilin əvvəlindən 2015-ci ilin oktyabrın 1-dək olan müddətdə 1847 yeni iş yeri açılıb ki, bunun da əksəriyyəti daimidir. Əsas kapitala isə 162,8 milyon manat həcmində investisiya yönəldilib. Rayonda istifadə olunmuş investisiyanın əhəmiyyətli hissəsi - 50,1 faizi dövlət, 49,9 faizi qeyri-dövlət müəssisələrinə aiddir. Adambaşına düşən investisiyaların həcmi il ərzində 836,6 manat olub. Cari ilin 9 ayında pərakəndə ticarət dövriyyəsinin həcmi 0,2 faiz artaraq 1450,0 milyon manat olub. Ümumi ticarət dövriyyəsinin 16,9 faizi ticarət fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin, 22,7 faizi fiziki şəxslərin, 60,4 faizi yarmarka və kənd təsərrüfatı məhsulları bazarlarının payına düşür. İlin əvvəlindən özəl müəssisələrin fəaliyyət dairəsi daha çox genişlənmiş və rayon əhalisinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatının ödənilməsində onlar müstəsna rol oynamışlar.

**Sosial məsələlər diqqətdədir**

Nizami rayonu təhsil və səhiyyə sahələrində də digər rayonlarla müqayisədə öz nüfuzunu qorumaqdadır. Rayonun payına düşən 24 orta ümumtəhsil məktəbi, "Zəngi" Liseyi, Kimya-Biologiya Təmayüllü Respublika Liseyi, 13 №-li İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi, Uşaq-Gənclər Yaradıcılıq mərkəzləri, 24 uşaq bağçası, 1 uşaq evi, 2 peşə liseyi, 1 peşə məktəbi, 2 kollec və özəl ali təhsil ocağı olan Xəzər Universiteti rayon gənclərinin təlim-tərbiyəsinə öz töhfələrini verirlər. Səhiyyə ocaqlarına gəldikdə, onların sayına görə də rayonun adı birincilər sırasında qərar tuta bilər. Hazırda rayon ərazisində xəstəxana və ambulator poliklinika fəaliyyət göstərir ki, ərazisinin o qədər də böyük olmaması nəzərə alınarsa, bu sayın heç də az olmadığı faktdır. Rayonda respublika əhəmiyyətli 4 saylı Vərəm Əleyhinə Dispanser, 2 saylı Dəri-Zöhrəvi Dispanseri, Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutu, Elmi-Tədqiqat Respublika Baytarlıq İnstitutu kimi müalicə ocaqları fəaliyyət göstərir.

**Rayonun nəqliyyat və yol infrastrukturu**

Nizami rayonunda yol-nəqliyyat sisteminin əsaslı təmiri və yenidən qurulması, yol infrastrukturunun yeniləşdirilməsi istiqamətində mühüm işlər görülüb. Digər rayonlardan fərqli olaraq Nizami rayonunda 4 metro stansiyası mövcuddur. Bu da əhalinin bu istiqamətdə sözün əsl mənasında bəxtinin gətirməsi deməkdir. Bakı Metropoliteninin "Koroğlu", "Qara Qarayev", "Neftçilər" və "Xalqlar Dostluğu" stansiyaları Nizami rayonunun payına düşüb ki, bu da rayonun yol-nəqliyyat infrastrukturunda əhəmiyyətli rola malik olmaqla onun çəkisini xeyli artırır. Metronun "Koroğlu" stansiyası əsaslı təmir və yenidən qurularaq əhalinin və paytaxtımızın qonaqlarının istifadəsinə verilib. Bundan əlavə, rayonun yol-nəqliyyat infrastrukturuna Bakı şəhərinin ümumi inkişaf konsepsiyasına uyğun olaraq son illərdə inşa olunmuş körpü və yol ötürücülərinin əhəmiyyətli hissəsinin bu rayonun ərazisinə düşməsi də öz təsirini göstərib.

Ölkə başçısı paytaxtın Nizami rayonunun da sosial-iqtisadi inkişafına daim qayğı və diqqətlə yanaşır, burada həyata keçirilən abadlıq-quruculuq işlərinin və infrastruktur layihələrinin yüksək səviyyədə reallaşdırılmasını xüsusi nəzarətdə saxlayır. İyun ayında "Bakı-2015" ilk Avropa Oyunlarının keçirildiyi ərəfədə Prezident cənab İlham Əliyevin açılışında iştirak etdiyi Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası rayonun simasına möhtəşəm və müasir çalar qatır. Eyni zamanda, rayon ərazisində Atletlər və Media kəndlərini Bakı Olimpiya Stadionu ilə birləşdirən yeni salınmış yol və Media Kəndi ilə SOCAR-ın İnformasiya Texnologiyaları və Rabitə İdarəsinin inzibati binasının arasından X.R.Ulutürk küçəsi ilə Heydər Əliyev prospektini birləşdirən yeni yol sürücülərin və sərnişinlərin daha rahat, təhlükəsiz və ən əsası, tıxacsız hərəkətinin təmin olunmasına şərait yaradıb.

**İdman sağlamlığın rəhnidir**

İdmanın inkişafı rayonun inkişaf proqramında xüsusi yerlərdən birini tutur. Belə ki, rayon ərazisində müasir tipli stadion inşa olunub ki, onun ərsəyə gəlməsi burada hətta beynəlxalq yarışların və idman bayramlarının keçirilməsinə perspektiv imkanlar yaradıb. Vurğulamaq yerinə düşər ki, "Bakı-2015" I Avropa Oyunlarının açılış və bağlanış mərasimlərinin keçirildiyi Bakı Olimpiya Stadionu Nizami rayonunun ərazisində yerləşən möhtəşəm idman arenasıdır. Qeyd edək ki, Nizami rayonunda 5 stadion, 6 idman-sağlamlıq kompleksi, 13 saylı ixtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi fəaliyyət göstərir.

**Qoy həmişə toy olsun**

Bəli. Elə Nizami rayonu da paytaxt əhalisinin toy və digər şənlik məclislərinin ən çox təşkil olunduğu məkandır. Hər gün onlarla gəncin ailə qurmasına şahid Ulu Tanrı və Tanrımızın bizə bəxş etdiyi torpaqda yerləşən Nizami rayonudur. Bakı şəhəri üzrə bu iaşə obyektlərinin əhəmiyyətli hissəsi məhz sözügedən rayonun payına düşüb ki, bu da onun büdcəsinə müsbət təsir baxımından önəmli rol oynayır. Bu sırada "Neolit" ailəvi istirahət mərkəzi, "Sərin", "Sarı gəlin", "İnci", "Ay işığı", "Xarı bülbül", "Xan bağı", "Meridian" kimi onlarla şadlıq sarayı və restoranın adını çəkmək olar ki, təqdim etdiyi yüksək komfort və xidmətin nəticəsi olaraq, hətta rayon ərazisində yaşamayan şəxslər belə öz şadlıq məclislərini keçirmək üçün buraya üz tutur.

Son olaraq bütün sadalananların fonunda qeyd etmək lazımdır ki, rayon günbəgün inkişaf edir, abadlaşır. Bu abadlaşmanın əsasında isə dövlətimizin başçısı tərəfindən imzalanan sənədlər, onların xalq tərəfindən dəstəklənməsi və uğurlu icrası dayanır. Bir vətəndaş olaraq bizim də arzumuz ölkəmizin hərtərəfli inkişafında mühüm rol oynayan iqtisadi tərəqqinin davamlılığının şahidi olmaqdır. Bu önəmli uğurlara imza atanlara isə işlərində uğurlar, daha böyük nailiyyətlər arzulayırıq.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

**Yazı Nizami Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**